**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**Fakültə: Biznez və Menecment**

**Təsdiq edirəm**
**"Biznes və logistika" kafedrasının**
**müdiri: dos. Əliyev M.Ə.**
**09 sentyabr 2025-2026-cı tədris ili**

# "Keyfiyyətin idarə edilməsi" fənni üzrə İŞÇİ TƏDRİS PROQRAMI (Sillabus)

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **00466** |
| **Fənnin növü:** | **Əsas** |
| **Tədris ili:** | **2025/2026** |
| **Tədris semestri:** | **Payız** |
| **Fakültə:** | **"Biznes və menecment" fakültəsi** |
| **Qrup:** | **bütün qruplar üzrə** |
| **Tədris yükü:** | **60 saat (mühazirə/məşğələ 30 /30)** |
| **Kredit sayı:** | **4** |
| **Kafedra:** | **Biznes və logistika** |

## II. Müəllim haqqında məlumat

| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **i.e.n, dos. İ.E.İsmayılov** |
| **E-mail ünvanı:** | **i.ismayilov@unec.edu.az** |
| **İş telefonu:** | (012) 440 05 62, |
| **Tələbələr üçün qəbul vaxtları:** | **çümə günləri, saat 11:00-13:00** |

## III. Fənnin təsviri

Rəqabətin sürətlə artdığı, biznes strukturlarının getdikcə mürəkkəbləşdiyi müasir dövrdə keyfiyyət amili daha vacib amilə çevrilir. Bu baxımdan keyfiyyətin idarə edilməsi təşkilatların rəqibləri üzərində üstünlük əldə etmək və saxlamaq məqsədi daşıyan bir çox aspektləri əhatə edir. Keyfiyyətin iqtisadi cəhətdən tarix boyunca önəmli bir ünsür hesab edilməsinə baxmayaraq

o, öz aktuallığını hələ də qoruyub saxlamaqdadır. Keyfiyyətin idarə edilməsi sistemlərinin təkmilləşdirilməsi, yeni proqramların və alqoritmlərin hazırlanması, məhsulun keyfiyyətinə nəzarət və müxtəlif kvalifikasiya göstəricilərinin yüksəldilməsi hal-hazırda ölkə iqtisadiyyatının qarşısında duran prioritet məsələlərdir. Məhsulun keyfiyyətinin idarə edilməsi üzrə fəaliyyətin nəzəri və elmi əsasların, müddəaların dərindən mənimsənilməməsi nəticəsində keyfiyyətin idarə edilməsinə baxışlarda səhvə yol vermək olar. Bu baxımdan "Keyfiyyətinin idarə edilməsi" fənni təşkilati məqsədlərə uyğun olaraq zərurin fəaliyyət planlarının öyrənilməsini əhatə edir. "Keyfiyyətin idarə edilməsi" fənni öz tədqiqat istiqamətinin öyrənilməsində iqtisadiyyat, psixologiya və informasiya idarəçiliyi kimi bir çox fənlərdən istifadə edir.

"Keyfiyyətin idarə edilməsi"nin bir elmi istiqamət kimi formalaşmasında W.Shewhart, G. Edwards, R.Y.Consun, V.Şuart, H.Dodc və H.Rominq ,E.Deminqin, A.Feyqenbaum, K.İsikava, Filip B.Krosbi, J. M. Juran, T.Peters, M. İmai, G. Taguchi, T. Ohno və digərlərinin tərəfindən keyfiyyətin idarə edilməsinə dair araşdırmalarının mühüm rolu olmuşdur.

Dos. Pr. Y.S. Türkan, Prof. Dr. İ. Efil, C.A.Варакута, Mehdi İ. Mehdiyev, Ə.Ş.Imanov, B.Огвоздин, Prof. T.Aized və başqalarının əsərləri fənni geniş və keyfiyyətli şəkildə tədrisini həyata keçirməyə imkan verir.

## IV. Fənnin məqsədi və vəzifələri

"Keyfiyyətin idarə edilməsi" fənninin öyrənilməsinin məqsədi tələbələrdə məhsul və xidmətlərin rəqabət qabiliyyətini artırmasını təmin edən keyfiyyət menecmentinin fundamental prinsipləri haqda məlumatlandırmaq, müasir müəssisədə keyfiyyət idarəetmə sistemlərinin qurulmasını tənzimləyən beynəlxalq və milli standartlar haqda, eləcə də keyfiyyət idarəetmə vasitələrini praktikada tətbiq etmək bacarıq və qabiliyyətinə dair bilikləri inkişaf etdirməkdir.

Kurs həmçinin tələbələrinə keyfiyyət idarəetmə prinsiplərini, əsas anlayışını, sənayedə tətbiq olunan metod və üsulları, keyfiyyətə nəzarət addımlarını, davamlı iş modellərini və s. öyrətmək məqsədi daşıyır. Kursu bitirdikdən sonra tələbələr keyfiyyət idarəetmə sistemləri mövzusunda məlumatlı olacaq, bu sahədə analizlər aparmaq, mövcud texnikaları tətbiq etmək bacarıqlarına yiyələnəcək. Kurs müddətində tələbələrə real vəziyyətlərdə keyfiyyət yanaşmalarını öyrətmək və qiymətləndirmək üçün təyin olunmuş məşqlər və iş halları olacaqdır. Kurs əsasən sənayedə görülən və şirkətləri həmişə mövcud təhdidlərdən və təhlükələrdən qorumaq üçün lazım olan praktik hallar əsasında hazırlanmışdır.

Kursun məqsədi həmçinin tələbələrdə məhsulun keyfiyyətinin artırılmasını, təşkilatların rəqabəqabiliyyətliliyini təyin edən yeni biliklərin yaradılması, saxlanılması, ötürülməsi və onun idarəolunma imkanları haqqında bütöv bir baxış formalaşdırmaqdır.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- keyfiyyətin idarə edilməsi sahəsində sistem idarəçiliyi təfəkkürünün əsas qanun və anlayışlarının öyrədilməsi;
- müasir innovativ müəssisələrdə keyfiyyətin idarə edilməsinə dair konseptual baxəşların öyrənilməsi;
- keyfiyyət göstəricilərinin təsnifatı, beynəlxalq standartların müddəaları, ümumi keyfiyyətin idarə edilməsi konsepsiyası haqqında təsəvvürlərin formalaşdırılması;
- keyfiyyətin idarə edilməsi metodlarının, kvalimetriya metodlarının və texnoloji proseslərin statistik tənzimlənməsinin, keyfiyyətin idarə edilməsinə proses və funksional yanaşmaların tətbiqi, məhsul və xidmətlərin keyfiyyətinin planlaşdırılması üzrə praktiki

bacarıqların əldə edilməsi;

• məhsulun keyfiyyətinin qiymətləndirilməsi üçün müasir vasitələrdən istifadə etmək, müəssisədə keyfiyyətin idarə edilməsi vəziyyətini təhlil etmək, təşkilatlarda keyfiyyətin idarə edilməsinin məqsəd və siyasətini formalaşdırmaq, keyfiyyət idarəetmə sistemini sənədləşdirmək bacarığını formalaşdırmaq.

Bu kursun öyrənilməsi nəticəsində tələbələr təqdim olunan məhsul və xidmətlərin keyfiyyətinin təmin edilməsinin müasir üsulları haqqında biliklərə yiyələnəcək, keyfiyyətin idarə edilməsi məsələlərinə sistemli yanaşma bacarıq və vərdişlərinə yiyələnəcəklər.

## V. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## VI. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- keyfiyyət kateqoriyasını və keyfiyyətin idarə edilməsi sahəsində terminologiyanı, əsas anlayışları;
- keyfiyyətlə bağlı normativ, metodoloji və hüquqi bazanı;
- standartlaşdırma üsulları və keyfiyyətin müəyyən edilməsinə yanaşmaları;
- keyfiyyətlə bağlı sənədlərin icrasını;
- müəssisələrdə, real biznesdə keyfiyyətin idarə edilməsinin əsaslarını;
- keyfiyyət göstəricilərinin təsnifləşdirilməsini;
- keyfiyyətin idarə edilməsi konsepsiyası, funksiyaları və metodlarını;
- keyfiyyət menecmentinin təkamülünün əsas mərhələlərini;
- 9000 və 14000 seriyalı İSO standartlarının əsas müddəalarını;
- keyfiyyətin total (ümumi) idarə edilməsi (TQM) konsepsiyasının prinsiplərini;
- müəssisədə keyfiyyətin idarə edilməsi xidmətinin (şöbəsinin) əsas fəaliyyət istiqamətlərini.
- təşkilatda keyfiyyətli məhsul istehsalını təmin edən ixtisaslı kadrların idarə edilməsi istiqaməti kimi, işçilərin peşəkar bacarıqlarının artırılmasını;
- təşkilatlarda kefiyyətini auditini, ona nəzarətin yollarını və texnikasını;

- iqtisadiyyatin rəqəmsallaşması şəraitində keyfiyyətin idarə edilməsinin yeni istiqamətlərini.

**Bacarmalıdırlar**:

*Kursun tədrisi tələbələrdə aşağdakı sahələrdə qabiliyyət və bacarıqlara sahib olmaq imkanı yaraır:*

- məhsulun keyfiyyətini qiymətləndirməyi;
- müəssisədə keyfiyyətin idarə edilməsinin vəziyyətini təhlil etməyi;
- təşkilatda məqsədləri və keyfiyyətin idarə edilməsi siyasətini formalaşdırmağı;
- histoqramlardan, nəzarət diaqramlarından və digər keyfiyyətin idarə edilməsi alətlərindən istifadə edərək verilənləri şərh etməyi;
- keyfiyyət idarəetmə sisteminin sənədləşdirilməsi üçün model formalaşdırmağı.
- keyfiyyətin idarə edilməsi metodlarının tətbiqini;
- kvalimetriya və statistik tənzimləmə üsullarını, texnoloji prosesləri;
- keyfiyyətin idarə edilməsinə proses və funksional yanaşmalar üzrə bacarıqlara;
- məhsulun keyfiyyətinin planlaşdırılmasını;
- yeddi keyfiyyət idarəetmə alətindən istifadə etməyi;
- keyfiyyət menecmentinin sənədləşdirilməsi üçün məlumat bazalarını layihələndirmək, yaratmaq və rasionallaşdırmaq;
- keyfiyyət idarəetmə sistemlərini təhlil etmək;
- müasir təşkilatların fəaliyyətində keyfiyyətin idarə edilməsini dizayn və təkmilləşdirmək.
- müəssisədə keyfiyyət auditini aparmaq.

## VII. Prerekvizitlər

Yoxdur.

## VIII. Fənnin mühazirə mövzuları

*Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzu üzrə mühazirələrin hər birinə 2 saat olmaqla 30 saat, seminar məşğələrinin də hər birinə 2 saat olmaqla 30 saat vaxt ayrılır.*

1. Keyfiyyət anlayışı, keyfiyyəti idarə edilməsi fənninin predmeti və vəzifələri
2. Keyfiyyatin idarə edilməsinin tarixi inkisaf mərhələləri və tanınmış tədqiqatçıların konsepsiyaları
3. Keyfiyyət menecmenti, məhsulun keyfiyyət səviyyəsi və keyfiyyətin idarə edilməsi sistemləri
4. Keyfiyyətin toplam idarə edilməsi, onun əsas elementləri və rəqabətədavamlılıq
5. Keyfiyyət göstəriciləri və məhsulun keyfiyyətinin idarə edilməsi mexanizmi
6. Keyfiyyət xərcləri
7. Məhsulun keyfiyyətinin idarə edilməsinin planlaşdirilması və motivasiya
8. Korporativ mədəniyyət və keyfiyyət mədəniyyəti
9. Keyfiyyətin idarə edilməsinin əsas metodları və proses yanaşması
10. Keyfiyyətin idarə edilməsində müştəriyönümlülük
11. Keyfiyyətə nəzarət, nəzarət proseslərinin qeydiyyatı və təhlili

12. Keyfiyyətə nəzarətin statistik üsulları, keyfiyyətin idarə edilməsi texnikaları
13. Keyfiyyətlə bağlı problemləri həll etmə metodları və məlumatların təhlili texnikaları
14. Keyfiyyətin idarə edilməsi sistemində standartlaşdırma
15. Keyfiyyatin idarэ edilmasi sisteminda sertifikatlaşdırma

## X. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

## III. Tələb olunan dərsliklər və dərs vəsaitləri

**Əsas ədəbiyyat:**


1. Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi (İstanbul Üniversitesi açik ve uzaktan eğitim fakültesi-2020)
2. Prof. Dr. İsmail Efil. "Toplam Kalite Yönetimi", Dora Yayın evi, 2016
3. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi (Ali maktablar üçün dərslik). "Çavuşoğlu" 2008. 208.s.
4. Imanov. Ə. Ş Keyfiyyətin idarə edilməsi (Ali maktablar üçün dərs vəsaiti). 2007
5. Варакута С.А. Управление качеством продукции. М.: Издательство РИОР, 2004- 109 с.
6. Виталий Огвоздин: Управление качеством. Основы теории и практики. Учебное пособие
7. Prof. Tauseef Aized - Total Quality Management and Six Sigma (Türk dilində tərcüməsi)


**Əlavə ədəbiyyat:**


1. Şahbazov K.A., H.S. Həsənov, M.H. Məmmədov, Menecment 2007
2. Управление качеством: учебник / коллектив авторов; под общ. ред. С.А. Зайцева. – М.: КНОРУС, 2018. – 424 с.
3. Горбашко, Е.А. Управление качеством: учебник для бакалавров [Текст] / Е.А. Горбашко. – М.: Юрайт, 2018. – 352 с.
4. Гродзенский, С. Я. Менеджмент качества: учебное пособие [Текст] / С.Я. Гродзенский. – «Проспект», 2018. – 200 с.
5. Окрепилов, В.В. Менеджмент качества [Текст] / В.В. Окрепилов. – СПб.: Издво Политехнического университета, 2013. – 650 с.
6. Тебекин, А.В. Управление качеством : учебник для бакалавриата и магистратуры Юрайт, 2018. – 410 с.
7. Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с.
8. Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г.



Dos. İsmayıl E. İsmayılov

Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

**XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

**FƏNN MÖVZULARI VƏ MƏQSƏDLƏR**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Keyfiyyət anlayışı, keyfiyyəti idarə edilməsi fənninin predmeti və vəzifələri | 1.Keyfiyyətin idarə edilməsinin inkişafı və keyfiyyət anlayışı; Keyfiyyət meyarları; Keyfiyyətə təsir edən faktorlar və keyfiyyətin xarakteristikası; Keyfiyyətin idarə edilməsi fənninin predmeti və əsas vəzifələri nəzəriyyələri.. Biliklərə resurs kimi perspektiv baxış, davranış iqtisadiyyatı, neyroiqtisadiyyat | 1.Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2. Prof. Dr. İsmail Efil. “Toplam Kalite Yönetimi”<br>3. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi |
| 2 | Keyfiyyatin idarə edilməsinin tarixi inkisaf mərhələləri və tanınmış tədqiqatçıların konsepsiyaları | Keyfiyyat sistemlərinin inkisafının ilk 2 mərhələsi, Teylor sisteminin yaranması; . Keyfiyyat sistemlərinin inkisafının 3-cü mərhələsi-keyfiyyətə ümumi nəzarəti konsepsiyası; Keyfiyyat sistemlərinin inkisafının 4-cü və 5-ci mərhələsi - keyfiyyətin total menecmenti konsepsiyası və İSO standartları; Keyfiyyət idarəetmə sistemlərinin inkişafında Shewart və Demingin tədqiqatları; Keyfiyyətin idarə olunmasına dair Juran və Crosby və İshikawa tədqiqatları; Keyfiyyətin idarə olunmasına sahəsinə böyük töhvələr vermiş Yaponiya alimlərinin konsepsiyaları | 1.Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2.. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>3. Окрепилов, В.В. Менеджмент качества<br>4. Виталий Огвоздин: Управление качеством |

| | | | |
|---|---|---|---|
| **3** | Keyfiyyət menecmenti, məhsulun keyfiyyət səviyyəsi və keyfiyyətin idarə edilməsi sistemləri | Keyfiyyət menecmentini və onun ümumi menecmentlə qarşılıqlı əlaqəsi Keyfiyyət xidmətlərinin funksiyaları; ; Məhsulun keyfiyyət səviyyəsi ilə bağlı əsas anlayışlar; ABŞ, Yaponiya və Qərbi Avropa ölkələrinin şirkətləri tərəfindən həyata keçirilən keyfiyyətə ümumi nəzarətin üç məcburi şərti; Məhsulun keyfiyyətinin idarə edilməsinin kompleks sisteminin (MKİKS) mahiyyəti və məzmunu; Keyfiyyətin total (ümumi) idarə edilməsi sistemi haqda məlumatları; CİT sistemi; Məhsulun keyfiyyət səviyyəsinin xüsusiyyəti, qüsursuz və çıxdaş olmaması. | 1. Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2.. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>3. Гродзенский, С. Я. Менеджмент качества:<br>4. Виталий Огвоздин: Управление качеством |
| **4** | Keyfiyyətin toplam idarə edilməsi, onun əsas elementləri və rəqabətə-davamlılıq | Keyfiyyətin total (ümumi) idarə edilməsinin (TQM)) tarixi inkişafı; Keyfiyyətin total (ümumi) idarə edilməsinin mahiyyəti və modeli; KTİE-nin müasir prisnipləri ; KTİE üçün zəruri olan əməliyyatlar və keyfiyyətin idarə edilməsi sisteminin xüsusiyyətləri; ISO 9001 Keyfiyyət İdarəetmə Sistemi və Keyfiyyət əl kitabı;. Keyfiyyət və rəqbət arasındakı əlaqə, KTİE rəqabət mübarizəsində müəssisənin müvəffəqiyyət amili kimi | 1. Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2.. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>3. Гродзенский, С. Я. Менеджмент качества:<br>4. Виталий Огвоздин: Управление качеством<br>5. Imanov. Ə. Ş Keyfiyyətin idarə edilməsi<br>6. Prof. Tauseef Aized - Total Quality Management and Six Sigma |

| | | | |
|---|---|---|---|
| **5.** | Keyfiyyət göstəriciləri və məhsulun keyfiyyətinin idarə edilməsi mexanizmi | Məhsulun istehlak dəyərini bir-birindən fərqləndirən amillər; .Keyfiyyət göstəriciləri istehlakçı dəyərlərinin əsas qiymətləndirmə kateqoriyası kimi, onun əlamətləri və onu müəyyən edən amillər; .Keyfiyyət ilgəyi. Deminq silsiləsi; .Məhsulun keyfiyyətinin idarə edilməsi mexanizmi və keyfiyyətin idarə edilməsinin əsas funksiyaları | 1. Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2.. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>3. Окрепилов, В.В. Менеджмент качества<br>4. Виталий Огвоздин: Управление качеством<br>5. Варакута С.А. Управление качеством продукции |
| **6** | Keyfiyyət xərcləri | Keyfiyyət xərcləri anlayışı və kateqoriyaları; Keyfiyyətə çəkilən xərclərin tərkibi; Keyfiyyər xərclərinin təsnifatı və onlar arasındakı əlaqə; Dhawan keyfiyyətlə əlaqəli xərcləri hansı iki ümumi istiqamətə bölmüşdü; Keyfiyyət xərclərinin meydana gəldiyi mərhələlər; .Sabit (hard) xərclər; Dəyişkən (soft) xərclər; Klassik idarəetmə və KTİE-yə görə xərclərin xüsusiyyətləri; Keyfiyyət xərclərinin müəyyən edilməsinin faydaları; Keyfiyyət xərclərinin kalkulyasiyasının metodları; | 1. Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2.. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>3. Гродзенский, С. Я. Менеджмент качества:<br>4. Виталий Огвоздин: Управление качеством |

| | | | |
|---|---|---|---|
| **7** | Məhsulun keyfiyyətinin idarə edilməsinin planlaşdirilması və motivasiya | Keyfiyyətin planlaşdırılmasnın mahiyyəti; Keyfiyyətin planlaşdırmasının vəzifələri; Keyfiyyətin planlaşdırmasının spesifikliyi; Müəssisədə məhsulun keyfiyyətinin artırılmasının planlaşdırılmasının istiqamətləri; Müəssisənin bölmələrində planlı işin xüsusiyyəti;. Keyfiyyətin idarə edilməsinin beynəlxalq və milli orqanları; Müəssisədə keyfiyyətin idarə edilməsi xidmətlərinin tərkibi; Mükafatlandırma üsulları; X, Y, Z, nəzəriyyələrinin məzmunu; A. Maslounun motivasiya modelinin mahiyyəti; Menecmentdə mükafatlandırmanın növləri; Keyfiyyət üzrə mükafatların növləri; .Keyfiyyətin idarə edilməsinin praktiki təşkili, uzlaşdırılması və tənzimlənməsi. | 1. Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2.. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>3. Гродзенский, С. Я. Менеджмент качества:<br>4. Виталий Огвоздин: Управление качеством<br>5. Imanov. Ə. Ş Keyfiyyətin idarə edilməsi<br>6. Тебекин, А.В. Управление качеством |
| **8** | Korporativ mədəniyyət və keyfiyyət mədəniyyəti | Korporativ mədəniyyət, onun əsas komponentləri; Korporativ mədəniyyətinin xüsusiyyətləri və onu səciyyələndirən funksiyalar; Korporativ mədəniyyətin təsnifatı, subyektiv və obyektiv mədəniyyət; W. Hallın korporativ mədəniyyətin əlifbası, Handy və Ouçinin təsnifatı; Təşkilati mədəniyyətin qorunması və təşkilatın imici; Korporativ mədəniyyətin dəyişdirilməsi üsulları, dəyişikliklərin davranışa təsiri; Keyfiyyət mədəniyyəti, onun yaradılması | 1. Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2. Prof. Dr. İsmail Efil. “Toplam Kalite Yönetimi”<br>3. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>4. Владимир Веснин: Теория организации. Учебник,<br>5. Акимова Т.А. Теория организаций |

| | | | |
|---|---|---|---|
| **9** | Keyfiyyətin idarə edilməsinin əsas metodları və proses yanaşması | Keyfiyyətin idarə edilməsinin metodoloji əsasları və onun təsnifatı; Keyfiyyətin idarə edilməsinin iqtisadi metodlar sistemi; Keyfiyyətin idarə olunmasının təşkilati- inzibati metodlar sistemi.; Keyfiyyətin idarə olunmasının sosial-pxisoloji metodlar sistemi; .Keyfiyyətin idarə edilməsinin mühəndis –texnoloji və statistik üsulları; Keyfiyyətin idarə olunmasının metodologiyasında proses yanaşması və onun xüsusiyyətləri; Proses yanaşmasının keyfiyyət idarəetmə sistemində faydaları, proseslərin idarə edilməsi mərhələləri | 1. Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2.. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>3. Окрепилов, В.В. Менеджмент качества<br>4. Виталий Огвоздин: Управление качеством<br>5. Варакута С.А. Управление качеством продукции |
| **10** | Keyfiyyətin idarə edilməsində müştəri-yönümlülük | Keyfiyyətin idarə edilməsində müştəriyönümlülüyü, müştəri mərkəzli yanaşma; Daxili müştərilər anlayışı; Xarici müştərilər anlayışı;; Yapon şirkətləri müştəri məmnuniyyəti; Müştəri məmnuniyyəti və müştəri gözləntiləri; Kano modeli; Müştərinin gözlədiyi əsas xüsusiyyətlər;. Müştəri məmnuniyyəti əmsalı; Müştəri gözləntilərini qarşılamağın şərtləri. | 1. Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2.. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>3. Гродзенский, С. Я. Менеджмент качества:<br>4. Виталий Огвоздин: Управление качеством<br>5. Imanov. Ə. Ş Keyfiyyətin idarə edilməsi<br>6. Prof. Tauseef Aized - Total Quality Management and Six Sigma |

| | | | |
|---|---|---|---|
| **11** | Keyfiyyətə nəzarət, nəzarət proseslərinin qeydiyyatı və təhlili | Məhsulun keyfiyyətinə nəzarət proseslərinin mərhələləri və təsnifatı; Nəzarət və sınaqların nəticələrinin qeydiyyatı, sınaq növləri və keyfiyyətə nəzarət sistemi; Müəssisələrdə texniki nəzarət xidmətlərinin fəaliyyətinin keyfiyyətə təsiri ; Keyfiyyətə nəzarətin növləri, qüsurların və onların səbəblərinin təhlilinin üsulları; Məhsulun keyfiyyətinin qiymətləndirilməsi | 1. Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2.. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>3. Гродзенский, С. Я. Менеджмент качества:<br>4. Виталий Огвоздин: Управление качеством |
| **12** | Keyfiyyətə nəzarətin statistik üsulları, keyfiyyətin idarə edilməsi texnikaları | İstehsalatda statistik üsulların tətbiq sahəsi ; Laylaşma (stratifikasiya).; Qrafik metod; sınıq xətt şəklində olan qrafik; dairəvi və lentvari qrafiklər; Z-sxemli qrafik ; sütunvari qrafik; Pareto diaqramması. Nəzarət xəritəsi; FDT-nin tətbiqinin əsas prinsipləri; proses axını qrafikləri; | 1. Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2.. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>3. Гродзенский, С. Я. Менеджмент качества:<br>4. Виталий Огвоздин: Управление качеством<br>5. Imanov. Ə. Ş Keyfiyyətin idarə edilməsi<br>6. Prof. Tauseef Aized - Total Quality Management and Six Sigma |
| **13** | Keyfiyyətlə bağlı problemləri həll etmə metodları və məlumatların təhlili texnikaları | Keyfiyyətin idarə edilməsində məlumatların təhlili; Tezlik paylanma cədvəlləri; Yoxlama vərəqələri və histoqramlar; Səpələmə diaqramları; “Beyin fırtınası” metodu; Müqayisə metodu; Balıq sümüyü diaqramı; Keyfiyyət çevrəsi anlayışı; Keyfiyyət çevrələrinin məqsədləri və əsas üstünlükləri | 1. Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2. Prof. Dr. İsmail Efil. “Toplam Kalite Yönetimi”<br>3. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>4. Захарова Ю.Н. Управление знаниями: основы теории и практические задания:,<br>5..Prof. Dr. Osman Yazıcıoğlu, Oğuz Borat, Cemil Hakan Kılıç Bilgi Yönetimi. Nobel akademik yayincilik, |

| | | | |
|---|---|---|---|
| 14 | Keyfiyyətin idarə edilməsi sistemində standartlaşdırma | Standartlaşdırma proseslərinin mahiyyəti, standartlaşmanın məqsədləri; Standartlaşdırmanın prinsipləri, standartların yaradılması qanunauyğunluqları və standartlaşdırmanın funksiyaları; Strandartlaşdırmanın mərhələləri və obyektləri; Standartlar, onlara qarş tələblər, kateqoriyaları və növləri; Standartlaşdırma metodları, ümumi elmi və spesifik metodların təsnifatı;. Beynəlxalq standartlar sistemi, İSO 9001:2015 Beynəlxalq Standartı | 1.Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2.. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>3. Гродзенский, С. Я. Менеджмент качества:<br>4. Виталий Огвоздин: Управление качеством<br>5. Imanov. Ə. Ş Keyfiyyətin idarə edilməsi<br>6. Prof. Tauseef Aized - Total Quality Management and Six Sigma |
| **15** | Keyfiyyatin idarэ edilmasi sisteminda sertifikatlaşdırma | Sertifikatlaşdırmanın mahiyyəti və əsas ilkin şərtləri; Sertifikatlaşdırmanın məqsədləri; Dövlətin sertifikatlaşdırma fəaliyyətinin normativ əsasları; Sertifikatlaşdırma üzrə beynəlxalq praktika | 1.Dos. Pr. Yusuf Sait Türkan – Toplam kalite yönetimi<br>2.. Mehdi İ. Mehdiyev. Keyfiyyətin idarə edilməsi<br>3. Окрепилов, В.В. Менеджмент качества<br>4. Виталий Огвоздин: Управление качеством<br>5. Варакута С.А. Управление качеством продукции |
| | **Yekun imtahan** | | |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

**XIII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIV. Sərbəst işlər: tələblər və qiymətləndirmə**

Semestr ərzində tələbələrə sərbəst iş tapşırığı verilir. Sərbəst işlər tələbələr tərəfindən təkbaşına və ya qrup işi formasında işlənə bilər. Sərbəst iş çap və ya elektron formada, yaxud əlyazma şəklində təhvil verilir. Sərbəst işlərin qiymətləndirilməsi onların keyfiyyətindən sayından asılı olaraq həyata keçirilə bilər. 5 və 10 ballıq sərbəst işlər tələbələrə fərdi və ya qrup işi kimi tapşırıla bilər. Belə işlərdə konkret mövzular üzrə araşdırmanın aparılması yaxud referatın işlənilməsi tələb oluna bilər. Belə araşdırmalar zamanı tələbələr fənnin mövzularından öyrəndikləri bilikləri və əldə etdikləri bacarıqları həmin tədqiqatlarda istifadə (tətbiq) etməyə çalışmalıdırlar. Araşdırmalar zamanı tələbələr ortaya çıxan çətinlikləri müəllimlə müzakirə edə və ondan məsləhət ala bilərlər. Belə işlər yazılı şəkildə word faylı formatında yaxud Power Point formatında təqdimat formasında, qrupun bütün üzvlərinin adı qeyd edilməklə, qrupun hər bir üzvünün fərdi kabinetinə yüklənir. Bu cür işlər, müvafiq olaraq, 0-dan 5-dək yaxud 0- dan 10-dək balla qiymətləndirilir. Sərbəst işin (araşdırmanın) hazırlanmasında qrup üzvlərinin fərdi töhfələri fərqli olarsa, qiymətləndirmədə bu nəzərə alınır. Aşağı balla qiymətləndirmələr zamanı müəllim bunun səbəbini tələbənin fərdi kabinetində izah edir.

Sərbəst işlərin yerinə yetirilməsi Universitetdə müəyyən edilmiş qaydalar çərçivəsində fənni tədris edən müəllimlə tələbələr arasında əldə olunan razılığa uyğun olaraq həyata keçirilir. Sərbəst işlərin qiymətləndirilməsində şəffaflığı təmin etmək müəllimin vəzifə borcudur.

**XV. Dərsə davamiyyət**

Tələbə bütün mühazirə və seminar dərslərində fəal iştirak etməlidir. Tələbənin dərsə davamiyyəti balla qiymətləndirilmir. Tələbə fənn üzrə ümumi tədris yükünün 25%-dən çox (14 saatdan çox) dərs buraxarsa, o, yekun imtahana buraxılmır. Bu halda tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır

**XVI. Aralıq qiymətləndirmə**

Fənnin tədrisi prosesində tələbənin dərslərdəki cari fəallığı (mühazirədəki fəallıq, seminar-məşğələdə cavabları, qrup işlərində iştirakı və s.) 20 ballıq sistemlə 0-20 bal arasında qiymətləndirilir.

Fənnin tədrisi prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları 1 dəfə aralıq imtahanlar keçirilməklə qiymətləndirilir. Aralıq imtahanlar tədrisin yarısı başa çatdıqdan sonra yalnız həmin dövrdə keçirilən mövzuları əhatə edən suallar əsasında təşkil olunur. Aralıq imtahanlar yazılı və test üsulu formasında keçirilə bilər.

Aralıq imtahada tələbənin bilikləri 30 ballıq sistem üzrə 0-30 bal arasında (maksimum 30

bal) qiymətləndirilir. Tələbə aralıq imtahanda iştirak etmədikdə jurnalda "0" (sıfır) bal qeyd olunur.

**XVII. Yekun imtahan**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. İmtahan yazılı formada yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**XVIII. Fənn üzrə yekun qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| İstiqamət | Ballar | Faiz |
|---|---|---|
| Tələbələrin sərbəst (qrup) işinə görə | - | - |
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50 % |
| **Semestr nəticəsinə görə** | **100 bal** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" – **F**
51-60 bal - "qənaətbəxş" – **E**
61-70 bal - "kafi" – **D**
71-80 bal - "yaxşı" – **C**
81-90 bal - "çox yaxşı" – **B**
91-100 bal - "əla" – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:** ________________ **Dos. İsmayıl Elman oğlu İsmayılov**

XIX.

Dos. İsmayıl E. İsmayılov